*Nəsimi rayonu*

# Ahıl vətəndaşlar diqqət və qayğı ilə əhatə olunmuşlar




1 oktyabr Beynəlxalq Ahıllar günü Nəsimi rayonunda geniş şəkildə qeyd olunmuşdur. Rayon icra hakimiyyəti, Veteran təşkilatları və Ağsaqqallar şuraları və bir sıra ictimai təşkilatların rayon şöbələrinin nümayəndələrinin iştirakı ilə Ahıllar gününün keçirilməsi üçün əvvəlcədən hazırlıq işləri görülmüşdür.

Əlamətdar günlə əlaqədar Nəsimi Rayon İcra Hakimiyyətində rayonun ahıl, kimsəsiz, əlil və qayğıya daha çox ehtiyacı olan vətəndaşlarının bir qrupu - ümumilikdə 150 nəfərin iştirakı ilə görüş keçirilmişdir. Tədbirdə iştirak edən **Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov** yaşlı nəslin nümayəndələrini salamlamış, onlara uzun ömür və cansağlığı arzulayaraq dövlət tərəfindən hər bir ahıl vətəndaşın diqqət və qayğı ilə əhatə olunduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində əldə olunmuş iqtisadi inkişaf ölkə rəhbərliyinə imkan vermişdir ki, son illər ərzində pensiya və minimum əmək haqlarının məbləği dəfələrlə qaldırılsın. Qarşıdakı illərdə də pensiya və müavinətlərin artırılması nəzərdə tutulmuşdur.

Bu gün Nəsimi rayonunda əhalinin 16 min nəfərinin yaşı 65-dən yuxarıdır. Nəsimi rayon Əhalinin Sosial Müdafiə Mərkəzinin Sosial xidmət şöbəsində 269 nəfər tənha, əlil qeydiyyatdadır ki, onlara 25 nəfər sosial işçi xidmət göstərir. Təqaüdçülərə təqaüd və müavinətlərin ödənilməsində gecikmələrə yol verilmir.

Asif Əsgərov rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə məlumat vermiş, rayonun sosial-iqtisadi inkişafı üçün görülməsi nəzərdə tutulan işlərdən danışmış və bildirmişdir ki, bu işlərin həyata keçirilməsində yaşlı nəsil nümayəndələrinin məsləhət və təkliflərinə hər zaman böyük ehtiyac vardır.

Çıxış edənlər rayonda ahıl və veteranlarla bağlı görülən işlərdən, onlara göstərilən diqqət və qayğıdan danışmış və bu işlərə görə ölkə başçısına öz minnətdarlıqlarını bildirmişlər.

Görüşdə iştirak edən ahıllara RİH tərəfindən maddi yardımlar və hədiyyələr təqdim edilmişdir.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**